# Sən getdin elə bil yer kürəsini, Ayırdın bir anlıq öz məhvərindən...

**Bahar ömürlü, bahar ölümlü**

Bahar fərqli olur insan ömründə. Bahar fərqli olur insan ölümündə. Baharda doğulanlar da bahar ömürlülər, gənc yaşında ömrünü dəyişənlər də bahar ömürlü, bu dünyadan baharda köç edənlər də bahar ölümlü... Sahil Şirinov isə həm bahar ömürlü, həm də bahar ölümlü...

Artıq 7 ildir ki, cənnətməkandır. Nə qədər şərəfli bir ömür yaşasa, xatirə yaddaşlarında əbədilik qazansa belə ata-anası, bir də... bir də illərdir bu ölümü yuxu sanaraq, o yuxunun gerçəkliyi inamı ilə yaşayan nişanlısı hər günü onun yoxluğü ilə cəhənnəm kimi yaşayır. Nə quşların cəh-cəh səsi, nə güllərin ətri, gözəlliyi, nə də təbiətin bahar gözəlliyi öz əsrarəngizliyini onların qəlbinə hopdura bilir. Çünki bu gözəlliklər Sahilsiz, bahar arzuları şaxta vurmuş çiçək kimi... Sevimli şairimiz Məmməd Araz misraları sanki şeirdə Sahil ömrünü vəsf edib:

**Sən getdin təbiət bir səs itirdi,**
**Bir sevgi dastanı qaldı yarımçıq.**
**Bir ulduz əbədi buluda girdi,**
**Bir çiçək göyərib soldu yarımçıq...**

Aylar elə bölünür ki, hər fəslin birinci ayının 20-dən sonra növbəti fəsil yurda qədəm qoyur. Elə bu baxımdan da Sahil yay fəslinin ilk günlərində - iyunun 24-də dünyaya göz açmışdı. O, Birinci Qarabağ müharibəsi dövründə doğulan körpələrdən idi - 1992-ci il...

Sahil hələ uşaqlıqdan xalqına, elinə bağlı, yurdsevər biri idi. Doğulduğu kəndin hər qarışına vurğun, təbiətin hər gözəlliyinə heyran idi. Axı o bilirdi ki, Vətən dünyaya göz açdığı məkandan başlanır. Çətinliklərdən qorxmazdı, böyüdüyü ailənin halal çörəyi ona yaşından da böyük düşüncə tərzi, insanlara qayğı, inam, sevgi bəxş etmişdi. Bütün bunları - əsil insanlığa xas xüsusiyyətlərin qorunması və həyatda daha bariz tətbiqi üçün hərbçi sənətini seçdi. 2010-cu ildə oxuduğu Bum kənd orta məktəbini başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu.



2014-cü ildə motoatıcı tağım komandiri ixtisası üzrə həmin məktəbi bitirdi, həmçinin leytenant hərbi rütbəsi aldı.

Sahil həmişə vətənpərvər oldu, çünki yaşadıbı mühit onu belə yetişdirmişdi. Xalqının erməni mənfurlarından çəkdiyi zülmlər, torpaqlarının bir hissəsinin erməni işğalında olması onun məhz vətən qayalarında "mamır olub bitməsi" istəyini gerçəkləşdirdi.

Hərbi qulluqçu kimi həmişə Vətənin müsəlləh əsgəri oldu. Atəşkəs olmasına rəğmən sərhəd bölgələrində baş verən toqquşmalarda həmişə öndə olan Sahil Şirinov 2016-cı ilin aprel hadisələrində də öz hərbi bacarığını, hünərini, igidliyini göstərdi.

Leytenant Sahil Şirinov 2016-cı ilin aprel ayında Azərbaycan - Ermənistan xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid oldu. Döyüş yoldaşları bu döyüşlər zamanı Sahilin 70-dən çox erməni qatilini öldürdüyünü və onun igidliklə döyüşərək şəhadətə qovuşduğunu qeyd edir və onunla fəxr etdiklərini söyləyirlər.

**Qürurlar... dərdlər...**

Şəhla xanımı artıq rayonumuzda, eləcə də respublikamızın bir çox bölgələrində "Analar anası" kimi tanıyırlar. Axı həqiqətən də o, 2020-ci ilin sentyabr ayında başlanan müharibədə şəhid olan övladların analarının ən yaxın dərd ortağıdır. Həm də bu acını onlardan əvvəl yaşayan bir ana kimi...

Oğlu Sahil haqqında danışarkən qeyd etdi ki, Sahilin acısı hər an mənimlədir. Yalnız təskinlik tapdığım odur ki, onun məhv etdiyi erməni mənfurları yaşasaydı, neçə ananın gözü yaşlı qalacaqdı... neçə nişanlı qız gözü yolda, qəlbi həsrətdə, həyatı yeknəsək, qarmaqarışıq olacaqdı... Sahil aldığım nəfəsdə, ürək döyüntülərimdə yaşar... körpəliyi ilə, gəncliyi, igidliyi, nakam arzularıyla...

Körpə oğullar onun qanını yerdə qoymadılar, özləri şəhadətə qovuşsa belə... Ancaq həqiqət odur ki, nə qədər qürurverici olsa da, qəlbimiz acılar toplusu biz şəhid analarının! Çünki bahar ömürlü, bahar arzulular - həyatdan nakam getdi Sahillər, Poladlar, Azərlər, Vasiflər, Adəmlər, Aqşinlər...

Bu gün Aprel şəhidi Sahil Şirinov hər kəsin qəlbində yaşayır. Ölümündən 8 il keçməsinə rəğmən həmişə göz önündə, yaddaşlarda, xatirələrdə, yeni tarixin qızıl yaddaşında...

**Torpağına qayıdış**

Sahil Şirinov qəlbi arzularla dolu getmişdi öz kəndindən. Qarabağ torpaqlarının işğaldan təmizlənməsi, Azərbaycanımızın bütövlüyü uğrunda mübarizə əzmi ilə. Bu yolda öz igidliyini də göstərdi. Onun döyüş yolunun davamçıları isə arzularını reallaşdırdı.

Aprelin 6-da, 2016-cı ildə Sahil Şirinov doğulduğu məkanda - Bum qəsəbəsində dəfn olundu. Onun ziyarətinə bu illər ərzində təkcə atası Həsrət və anası Şəhla Şirinovlar, əzizləri deyil, bütün vətənpərvər insanlar gedir və əbədiyaşar qəhrəmanın xatirəsini qeyd edir, anırlar.

Həsrət ata, Şəhla ana isə daimi ziyarətçilər... Gözləri məzar daşlarındakı Sahilin baxışlarında, qəlbləri isə sözlər və acılarla dolu bir halda...

***Sən getdin elə bil yer kürəsini,***
***Ayırdın bir anlıq öz məhvərindən.***
***Dəydi bir-birinə səma, dəniz, dağ...***

O səmada, o dənizdə, o dağda... insanların qan yaddaşında yaşayan oğul, məkanın sənnət olsun!

**BİBİXANIM.**

# Qan yaddaşında yaşayanlar

***Onlar baharda doğulmuşlar. Tale onlara bahar ömrü bəxş etmiş, lakin əbədi bir ömür qazanmağı nəsib etmişdir. İnsan var ki, əsrdən çox yaşayır, ancaq adı da özü ilə bərabər gömülür. İnsan ömrünün pislikləri də adı ilə bərabər xatırlanır, yaxşılıqları da... Hər kəs əməlinə, cəmiyyətə verdiyi hansısa bir faydaya görə bir müddət-bəzən illər, bəzən əsrlər belə nəsilbənəsil yaşayır. Xalqının firavanlığı, torpaq, vətən uğrunda canını fəda edənlər isə əbədiyaşarlılıq qazananlardır.***

**Mən bir evin,**
**bir vicdanın köləsiyəm,**
**Göy uçulsa,**
**torpaq ölsə, öləsiyəm**

**M. Araz.**



**Elşən Babazadə** - 1996-cı ildə, aprelin 4-də Qəbələnin Mıxlıqovaq kəndində zəhmətkeş bir ailədə doğulmuşdur. Orta təhsil aldıqdan sonra həqiqi hərbi xidmətə çağırılmış, xidmət müddətini başa vurduqdan sonra bu sahədə işləmək, vətən keşiyində dayanmaq arzusu ilə müddətdən əlavə xidmətini davam etdirmişdir.

Elşən nişanlı idi. Oktyabr ayında sevdiyi qız ilə ailə quracaqdı. Anasını körpə ikən itirən Elşənə və iki bacısına atası Sahib Babayev həm ata, həm də ana olmuşdur.

Elşən nümunəvi hərbiçi idi, verilən tapşırıqları məharətlə yerinə yetirirdi. O, 2022-ci ilin sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətində törətdiyi genişmiqyaslı təxribatın qarşısının alınması zamanı Zəngilanda şəhid olmuşdur. Tarixin qan yaddaşına köçərək tarixi təzələmişdir. Məkanı cənnət olsun!

**İtirib özündə özünü dünya,**
**Toyların, yasların özülü dünya...**

**Tural Cəlilov** - Dızaxlı kəndində 1996-cı il aprel ayının 10-da doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra 2014-cü ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Əsgəri xidmətdə olduğu illərdə anasını itirmiş, xidmətini başa vurub doğma kəndinə qayıdandan sonra isə gənc, idmançı qardaşı Əsədin ölümü onun iç dünyasını param-parça etmişdi. 2017-ci ildə atasını itirən Tural acıları ilə bahəm öz ayaqları üstə dayanmaq üçün müxtəlif işlərdə çalışırdı...



2020-ci ilin iyul hadisələri, Polad Həşimovun ölümü Turalı çox sarsıtmışdır.

Sentyabr ayının 27-də Qisas Müharibəsi başlanan günü Tural artıq yenidən Ordumuzun əsgəri idi. Könüllü olaraq vətənin müdafiəsinə gedən Tural sentyabrın 21-dən orduda döyüş hazırlığı keçirdi...

Tural Cəlilov Tərtər, Ağdərə istiqamətində, Laçın döyüşlərində iştirak etmişdir. O, oktyabrın 6-dək döyüşdü... Tərtər döyüşləri zamanı şəhadətə qovuşdu... 7 oktyabrda Dızaxlı kəndində torpağa tapşırıldı.

Tural Cəlilov gənc olmasına rəğmən acılar yaşayan biri olmuş, Vətənpərvərliyi ilə hər şeyə rəğmən daha güclü olmuşdur. İnsan kimi, səbr, dözüm, qorxmazlıq, igidlik, mehribançılıq xüsusiyyətlərinin cəmləşdiyi bir xarakterə malik olan Tural gənc ikən arzuları çiliklənərək əbədiyyətə qovuşmuşdur. Vətən sevgisini həmişə öndə tutan Tural tarix yazan igid kimi tarixin qan yaddaşında əbədi yaşayacaq!

Məkanın cənnət olsun, şəhidim!

**BİBİXANIM**

# Vətən fədailəri

**"Leytenant Zeynalov"**

Şəhidin təzəsi, köhnəsi olmaz. Şəhid hər zaman cənnət qoxar, şəhid acısı isə yeni açılmış yara kimi sızlayar.



Əmim şəhid olanda körpə olmağıma baxmayaraq, onunla bağlı gözəl xatirələrim var. Yaddaşımdan silinməsini qətiyyən istəmədiyim xatirələr. Canım əmim!

Bizə xüsusi qayğı ilə yanaşdığını xatırlayıram, gözəl simasını xatırlayıram, döşəmə üstünə oturduğu yerdən əlinin baş barmaqları ilə havada dayandığını xatırlayıram. Cəsur və güclü duruşunu, əzmini, cəsarətini xatırlayıram...

Ona "leytenant Zeynalov" - deyə müraciət edirdilər. Çox intizamlı, çevik, əsgərlərinə qarşı qayğıkeş və tələbkar idi.

Leytenant Şəfahət Zaməddin oğlu Zeynalov 1972-ci ildə Qəbələ rayonunun Uludaş kəndində usta ailəsində dünyaya göz açmışdır. 1989-cu ildə orta məktəbi bitirən Şəfahət elə həmin il müsabiqə yolu ilə Kalininqradda (Sankt-Peterburq) komandirlər hazırlayan ali hərbi məktəbə qəbul edilmişdir. 93-cü ildə həmin məktəbi fərqlənmə ilə bitirən Şəfahət Qusar rayonundakı N saylı hərbi hissəyə göndərilmiş, burada rota komandiri təyin edilmişdir.

1994-cu ilin yanvarın 8-də on cəbhəyə göndərilmişdir. Füzuli rayonunun bir sıra kəndlərinin düşməndən azad olunmasında mərdliklə iştirak etmiş, xüsusi qəhrəmanlıqlar göstərmişdir.

1994-cu il fevral ayının 11-də Füzuli rayonu istiqamətində gedən qızğın döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid olduqdan iki gün sonra doğulduğu kənddə torpağa tapşırılmışdır.

Daim qəhrəmanlıqları ilə xatırlanan şəhid Şəfahət Zaməddin oğlu Zeynalov, sən hər zaman qəlbimizdəsən.

Müqəddəs ruhun şad olsun!

**Aynur DƏRYA,**
**Bum kəndi.**

**Cənnətməkanda 31 il**

Qəbələ rayonun Pirəlli kənd sakini Birinci Vətən müharibəsinin şəhidi Ramiz Vahabovun şəhidliyi,



31-ci il dönümünü qeyd edildi

Tədbirdə şəhid ailələri, qazilər, yazarlar, məktəblilər, kənd camaatı şəhidimizi yad etməyə gəlmişdi. Tədbirin aparıcısı ilahiyyatçı Seyid Əfəndi olmuşdu.

Öncə şəhidlərimiz bir dəqiqəlik sükutla yad edilmiş, sonra tədbirə davam edilmişdir.

Şəhidlik uca məqamdır, o uca zirvədə duranları yad etmək, onların məzarlarını ziyarət edərək halallığını almaq, onların ruhuna duaçı olmaq bizlərin borcudur. Başı bəlalar çəkən vətənin xilaskarlarıdır onlar.

"Qəbələnin səsi" ədəbi yazarlar birliyinin üzvləri, Qəbələ - Oğuz yazarları adından şəhid doğmalarına baş sağlığı veririk.

Allah cəmi şəhidlərimizə rəhmət eləsin. Amin!

**Şəhla XƏLİLQIZI,**
**"Qəbələnin səsi" ədəbi yazarlar birliyinin rəhbəri.**